**Ə M R**

**№16116400014**

**Bakı şəhəri** **‹‹10›› fevral 2016-cı il**

*“Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Apellyasiya Şurasının tərkibinin təsdiq edilməsi barədə”*

Sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə yaradılmış Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Apellyasiya Şurasının tərkibinin təsdiq edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”nin 15.5-ci bəndlərini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Apellyasiya Şurasının tərkibi aşağıdakı kimi təsdiq edilsin:

**Şuranın sədri:**

Arif Əşrəfov- Komitə Aparatının rəhbəri

**Şuranın üzvləri:**

Elşad Cəbrayılov - Aparatın Qanunvericilik və hüquq ekspertizası şöbəsinin müdir müavini

Səmayə Rəsulova - Aparatın Patent şöbəsinin Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sektorunun müdiri

Cəbrayılov Firudin - Komitə yanında Dövlət Akkreditasiya Xidmətinin Laboratoriyaların akkreditasiyası sektorunun müdiri

Namiq Şirinov - Aparatın Metrologiya şöbəsinin baş məsləhətçisi

Rəna Səfərova - Aparatın Texniki tənzimləmə və standartlaşdırma şöbəsinin baş məsləhətçisi

Vüqar Əliyev - Aparatın Daxili nəzarət sektorunun baş məsləhətçisi

2. Apellyasiya Şurasının cari fəaliyyətinin təşkili üçün aşağıdakı tərkibdə Apellyasiya Şurasının Katibliyi təsdiq edilsin:

**Katibliyin rəhbəri:**

Səbinə Muğanlinskaya- Aparatın Ümumi şöbəsinin baş məsləhətçisi;

**Katibliyin tərkibi**

Anar Haqverdiyev - Aparatın İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin böyük məsləhətçisi;

Nüybər Soltanəliyeva – Aparatın Ümumi şöbəsinin baş məsləhətçisi

3. Apellyasiya Şurasına tapşırılsın ki:

- öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununu və Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və "Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Apellyasiya Şurası haqqında" Əsasnaməni rəhbər tutsun;

- şurada baxılan şikayətlərin uçotunu apararaq, onları təhlil etsin, icmallaşdırsın və nəticəsi barədə, o cümlədən Apellyasiya Şurasının qərarlarının yerinə yetirilməsinin monitorinqini apararaq Komitə sədrinə yarımillik və illik arayışlar (hesabatlar) təqdim etsin;

- şuranın iclaslarının və gündəliyinə daxil edilmiş şikayətlərin müzakirəsinin video çəkilişini həyata keçirsin və həmin çəkilişlərin bir il müddətində saxlanılmasını təmin etsinlər.

- şuranın fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, onun iclaslarında baxılan məsələlər barədə məlumatı və qəbul edilmiş qərarlar barədə məlumatları kütləvi informasiya vasitələri və Komitənin rəsmi internet saytı vasitəsilə yayınlanmasını təmin etsin.

4. Aparatın İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri F.Talıbova və İşlər şöbəsinin müdiri N.Vəliyevə tapşırılsın ki, bu əmrin 3-cü bəndinin 3-cü hissəsində qeyd olunmuş tapşırığın icrası məqsədilə zəruri olan işlərin həyata keçirilməsini təmin etsinlər.

5. Aparatın İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri F.Talıbova tapşırılsın ki, yaradılmış Apellyasiya Şurası barəsində məlumatı kütləvi informasiya vasitələri və Komitənin rəsmi internet saytı vasitəsilə yayınlanmasını təmin etsin.

6. Ümumi şöbəyə (X.Həsənovaya) tapşırılsın ki, aidiyyəti struktur bölmələrini və şəxsləri bu Əmrlə tanış etsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Sədr** **Ramiz Həsənov**